**Jalə Rəhman qızı Əliyeva**
**i.f.d.**
**Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu**
**"İnklüziv sosial inkişaf" şöbəsi**
**UOT: 331.526. JEL: J01**

# Əlilliyi olan şəxslərin məşğulluğunun mövcud vəziyyətinin qiymətləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi – dünyada və Azərbaycanda əlilliyi olan şəxslərin məşğuluğunun mövcud vəziyyətinin qiymətləndirilməsi və problemlərinin üzə çıxarılmasıdır. Tədqiqatın metodologiyası – tədqiqat işində ölkəmizdə və dünyada əlillərin məşulluğunun təmin edilməsi ilə bağlı qəbul edilmiş strateji və hüquqi-normativ sənədlər, beynəlxalq təşkilatların bu sahədəki hesabatlarından istifadə olunmuşdur. Müqayisəli iqtisadi-statistik təhlil, ümumiləşdirmə, sistemli təhlil, şəxsi müşahidə və mühakimə metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – Azərbaycanda əlilliyi olan şəxslərin məşğulluğunun artırılması və rifahının yaxşılaşdırılması məqsədilə aparılan sosial-iqtisadi siyasət sahəsində faydalı ola bilər. Tədqiqatın nəticələri - əlilliyi olan şəxslərin iqtisadi fəallığı digərləri ilə müqayisədə aşağıdır. Əksəriyyət ölkələrdə işsizlik göstəriciləri əlilliyi olan şəxslər arasında əlilliyi olmayanlara nisbətən daha yüksəkdir. Bu baxımdan əlilliyi olan şəxslərin iqtisadi fəallığının aşağı olmasının səbəbləri araşdırılır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – Azərbaycanda və dünyada əlilliyi olan şəxslərin məşğulluğunun mövcud vəziyyəti müqayisəli şəkildə təhlil edilmiş, onların iqtisadi fəallığının aşağı olmasının səbəbləri araşdırılmışdır.*

***Açar sözlər:*** *əlilliyi olan şəxslər, məşğulluq və işsizlik, məşğulluq kvotaları, əmək pensiyası, əlillərin hüquqları*

## Problemin qoyuluşu

Məşğulluğun təmini hər bir şəxsin və onun ailəsinin yaşayışını və rifahını təmin edən əsas faktordur. Əlilliyi olan şəxslərin məşğulluğu özlərinin maddi rifahını təmin etmələrilə yanaşı cəmiyyətə faydalı olmaları, özlərinə sosial mühit formalaşdırmaları baxımından da əhəmiyyətlidir. Əlilliyi olan şəxslərin üzləşdikləri problemlər içərisində onların əmək fəaliyyəti ilə məşğul olmaları və işsizlikdən qorunması məsələləri aktuallıq kəsb edir. Son illər dünyada əlillərlə bağlı həyata keçirilən sosial siyasətlər çərçivəsində bu kateqoriyadan olan insanların iş həyatına daxil olmaları məsələləri ilə bağlı ciddi müzakirələr aparılır. BMT-nin konvensiyasında əlilliyi olan insanların da digərləri kimi əmək hüququna malik olduğu qeyd edilir. Sənəddə göstərilir ki, ölkələrin bu kateqoriyadan olan insanlar üçün məşğulluq imkanlarını genişləndirmələri və karyera inkişafı üçün müvafiq addımlar atmaları zəruridir. Hər kəs üçün bərabər məşğulluq və layiqli əməyin təmin edilməsinə nail olunması əsas məqsədlərdən biri kimi Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi qarşıya qoyulmuşdur. Əmək fəaliyyəti ilə məşğul olmanın psixoloji üstünlükləri də vardır. Belə ki, əmək fəaliiyəti bu kateqoriyadan olan şəxslərin özünü təsdiqinə, onlarla sağlam insanlar arasındakı psixoloji baryerin aradan qaldırılmasına, bununlada özlərini cəmiyyətin bir parçası olaraq görmələrinə imkan verir. Əlilliyi olan insanların işsiz qalma ehtimalı daha yüksəkdir. İşlə təmin olunsalar belə, çox vaxt daha az gəlir əldə edirlər. Əlillərin məşğulluğunun təmin edilməsi mürəkkəb və çoxşaxəli prosesdir ki, burada da bir çox maneələr mövcuddur. Əlilliyi olan insanlar əlilliyi olmayan insanlarla müqayisədə daha pis sağlamlıq, aşağı təhsil səviyyəsi və daha yüksək yoxsulluğa məruz qalırlar. "Dünyanın əksər ölkələrində funksional çətinliyi olan şəxslərin məşğulluq səviyyələri funksional baxımdan heç bir problemi olmayan şəxslərlə müqayisədə daha aşağıdır" [11].

**Azərbaycanda əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı mövcud qanunvericilik**

Respublikamızda əlillərin məşğulluğu Konstitusiya başda olmaqla müxtəlif hüquqi tənzimləmələrlə müəyyən edilmişdir. Konstitusiyada göstərilir ki, "hər kəsin əməyə olan qabiliyyəti əsasında özünə sərbəst fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır" [1]. Bu hüquq cəmiyyətin ayrılmaz üzvləri kimi əlillər üçün də təmin olunur. Ölkəmizdə əlilliyi olan insanların əmək bazarına çıxışının asanlaşdırılması və məşğulluğunun təmini üçün müvafiq qanunvericilik təminatı vardır. Əlilliyi olan şəxslərlə bağlı qəbul olunmuş əsas sənəd Azərbaycan Respublikasının da 2008-ci il 2 oktyabr tarixli qanunla qəbul etdiyi BMT-nin "Əlilliyi olan Şəxslərin Hüquqları haqqında" Konvensiyasıdır. Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının qanununda əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyin aradan qaldırılması, onların əmək bazarına açıq, inklüziv və bərabər hüquqlu çıxış imkanlarının və sosial müdafiəsinin təmin edilməsi sahəsində milli qanunvericiliyin Konvensiyanın tələblərinə uyğunlaşdırılması sahəsində müvafiq tədbirlər həyata keçirməsindən bəhs edilir. 2018-ci ildə qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında qanunun 5-ci fəsli əlilliyi olan şəxslərin məşğulluğuna həsr edilib. Qanunda "əlilliyi olan şəxslərin əmək hüququnun həyata keçirilməsi; məşğulluğunun təmin edilməsi; iş yerlərinin əlilliyi olan şəxslərə müyəssər olması və istifadəsi üçün ağlabatan uyğunlaşdırılması; işəgötürənlərin istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxsləri işə düzəltmək vəzifəsi; əmək şəraiti; əlilliyi olan şəxslərin fərdi əməyi və sahibkarlıq fəaliyyəti" ilə bağlı maddələr yer almaqdadır [6]. Əmək Məcəlləsində əlilliyi olan şəxslər üçün xeyli imtiyazlar nəzərdə tutulur. Məcəllədə "əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi ilə bağlı 16-cı maddədə göstərilir ki, əlilliyi olan şəxslə onun əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və özü istəmədən digər işə keçirilməsi yol verilməzdir. Onlar üçün müəyyən edilən imtiyazlar və əlavə təminatlar ayrı-seçkilik hesab edilmir. İşəgötürənlər tərəfindən əlillərə uyğun iş yerinin və iş şəraitinin yaradılması təmin etməlidir (maddə 54). Əlillər attestasiya olunmurlar (maddə 66) və əgər işçi peşə xəstəliyi nəticəsində əlil olmuşsa, ixtisar vaxtı onların işdə saxlanılmalarına üstünlük verilir (maddə 78). Öhdəsində əlilliyi müəyyən olan ailə üzvü varsa bu işçilərin əmək müqaviləsinin ləğv olunması qadağandır. Öhdəliyində 18 yaşınadək əlilliyi olan uşaqlı qadınlara əlavə məzuniyyət verilir (maddə 117)" [3].

Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əlilliyi olan şəxslərin məşğulluq məsələlərinə dair tədbirlər nəzərdə tutulmuşdur. Sənəddə göstərilir ki, "əilliyi olan şəxslərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, onlar üçün məşğulluq imkanlarının artırılması məqsədi ilə sosial və peşə reabilitasiya müəssisələrinin sayı artırılacaqdır. Əlilliyi olan şəxslərin informasiya və kommunikasiya texnologiyalarından faydalanmaq, kommunikasiya sistemləri vasitəsilə informasiya əldə etmək imkanları artırılacaqdır" [5]. Bununla yanaşı, "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda əlilliyi olan şəxslərin səmərəli məşğulluğa və layiqli əməyə nail olması əsas hədəf kimi müəyyən edilmişdir. Mövcud hüquqi bazanın təhlili əlilliyi olan şəxslərin əmək bazarına çıxışının asanlaşdırılmasından ötrü təminatların olduğunu göstərir. Bununla belə müvafiq hüquqi bazada bəzi boşluqlar mövcuddur. Belə ki, əmək məcəlləsində nəzərdə tutulmuş imtiyazlarla bağlı məsrəflər mülkiyyət formasından asılı olmayaraq işəgötürənlərin üzərinə düşür. Belə olan halda işəgötürənlər əlilliyi olan şəxsləri işə götürməkdə maraqlı olmurlar ki, bu da əlillərin məşğuluqlarının təmin olunmasında problem yaradır. Əlillərin əmək hüquqları pozulur, onlar işədüzəlmədə süni maneələrlə rastlaşırlar. Qeyd edək ki, qanunvericilikdə əlilliyi olan şəxslərin məşğulluğu üçün nəzərdə tutulmuş kvotaların yerinə yetirilməsi və əlavə vakant yerlərin yaradılmasında işəgötürənlərin həvəsləndirilməsi

mexanizmi yoxdur. Əlillərin məşğulluğunun təmini ilə bağlı aparılan islahatların davam etdirilməsindən ötrü qanunvericilikdəki boşluqların aradan qaldırılması məqsədə uyğundur.

**Əlilliyi olan şəxslərin məşğulluğunun artırılması ilə bağlı həyata keçirilən siyasətlər**

Hazırda dünya ölkələrində əlillərin məşğulluğunun tənzimlənməsində "kvota üsulu"ndan geniş istifadə edilir. Bu üsul məcburi məşğulluq öhdəliyini ifadə edir. Müəyyən sayda və ya nisbətdə əlillərin işə götürülməsini məcburi edən kvota üsuluna əlillərin iş həyatına daxil olmasını asanlaşdıran müsbət ayrı-seçkilik təcrübəsi kimi də yanaşılır. Böyük iyirmiliyə daxil olan Braziliya, Fransa, Almaniya, İtaliya, Yaponiya, Cənubi Koreya, Argentina, Çin, İndoneziya, Səudiyyə Ərəbistanı və Kanada əlillər üçün məcburi məşğulluq kvotaları tətbiq olunan ölkələr sırasındadır (cədvəl 1).

**Cədvəl 1.**

**Əlillər üçün məcburi məşğulluq kvotaları tətbiq olunan ölkələr: Böyük iyirmiliyə daxil olan bəzi (G20) ölkələr və Azərbaycan**

| Ölkələr | Məcburi məşğulluq kvotası | % | Qeyd |
|---|---|---|---|
| **Avstraliya** | Yoxdur | - | |
| **Braziliya** | | 2-5% | 100-200 işçiyə 2%;<br>201-500: 3%; 501-1000: 4%; 1001 və 5%-dən yuxarı. |
| **Kanada** | Yoxdur | - | - |
| **Çin** | Var | 1.5% | - |
| **Fransa** | Var | 6% | 20-dən çox part-time və ya tam ştatlı işçisi olan istənilən işəgötürənə aiddir. |
| **Almaniya** | Var | 6% | 19-dan çox işçi |
| **Hindistan** | Var | 3% | - |
| **İtaliya** | | 7% | Dövlət və özəl sektorda 50-dən çox işçi,<br>15-35 işçi-1 yer,<br>36-50 işçi-2 yer |
| **Yaponiya** | Var | 2-2.3% | Dövlət təşkilatları: 2,3%, özəl təşkilatlar: 2,0% |
| **İngiltərə** | Yoxdur | - | - |
| **ABŞ** | Yoxdur | - | - |
| **Türkiyə** | | 3% | Dövlət və özəl sektorda 50-dən çox işçi |
| **Azərbaycan** | Var | 3-5% | 25-dən 50-dək-3% (1 yer)<br>50-dən 100-dək-4% (işçilərin orta siyahı sayının 2%-i)<br>100-dən çox-5% (İşçilərin orta siyahı sayının 2,5%-i) |

Mənbə: [8]

Çində əlilliyi olan şəxslərin məşğulluğunu təşviq etmək üçün onların əmək haqları Əlillərin Məşğulluğunun Müdafiəsi Fondu tərəfindən ödənilir. Yaponiyada müəyyən edilmiş məcburi məşğulluq kvota tələbindən daha az işə götürən biznes sahiblərindən rüsum alınır. Almaniyada da işəgötürənlər kvota öhdəliyinə əsasən hər doldurulmamış kvota vəzifəsi üçün kompensasiya rüsumunu ödəməlidirlər. Fransada doldurulmamış vəzifələr üçün adi rüsum tələbindən əlavə olaraq, kvota öhdəliyini 3 ildən artıq yerinə yetirməyən özəl işəgötürənlər tərəfindən əlavə məbləğ ödənilir. Qazaxıstan, Rusiya, Ukrayna, Venesuela kimi ölkələrdə isə cərimələr inzibati xətalar aktları və ya məcəllələri əsasında tətbiq edilir [10]. Doldurulmamış kvota vəzifələrinə görə işəgötürənlərdən yığılan vəsaitlər, bir qayda olaraq ya əlilliyi olan şəxsləri işə götürmək öhdəliyini yerinə yetirən işəgötürənlərə həvəsləndirmə və ya dəstək xidmətləri vasitəsilə kompensasiya dəstəyinin təmin edilməsi, ya da əlilliyi olan insanlar üçün peşə hazırlığının və ya məşğulluqla bağlı digər dəstəyin maliyyələşdirilməsi üçün istifadə olunur. Anqlosakson ölkələri isə qeyri-kvota yanaşmasına üstünlük verib. Böyük Britaniya 1995-ci ildən kvota sistemindən imtina etmişdir. Əlilliyi olan insanların işə qəbul prosesində və əmək münasibətlərində ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı qanunvericilik qəbul edilmişdir. Avropa Birliyində də kvota tətbiq olunmur. Avropa Parlamenti 2017-ci ildən

dövlət və özəl sektorda əlilliyi olan insanlar üçün minimum məşğulluq faizlərinin müəyyən edilməsi yolu ilə əmək bazarında müsbət ayrı-seçkiliyin tətbiqinə çağıran qətnamə qəbul edib. Ölkəmizdə də əlillərin məşğulluğunun təmin edilməsində kvota tətbiq edilir. Belə ki, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, əlilliyi olan şəxsləri işlə təmin etmək üçün müəssisə və təşkilatlarda kvota müəyyən edilir. Kvota üsulunu əlilliyi olan şəxslərin məşğulluğunun təmin edilməsi sahəsində əhəmiyyətlidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il tarixli qərarı ilə "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası" təsdiq edilmişdir. Qanunvericiliyə əsasən, kvota müəssisədəki işçilərin orta siyahı sayının 5%-dən çox olmamalıdır. Müəssisədə müəyyən edilmiş kvota tamamlandığı halda hər əlavə iş yeri üçün İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına həmin iş yerinin 100 faiz maliyyələşməsi həyata keçirilir. Məlumat üçün bildirək ki, dünyanın müxtəlif ölkələrində əlillərin məşğulluğunun tənzimlənməsində, kvota-cərimə metodu, qorunan məşğulluq, ehtiyat və ya rezerv edilmiş məşğulluq, subsidiyalaşdırılmış məşğulluq kimi üsullardan istifadə olunmaqdadır. Son illər əlillərin açıq əmək bazarına inteqrasiyası məqsədilə dünyada getdikcə geniş yayılmaqda olan "dəstəklənən məşğulluq" üsuluna üstünlük verilməkdədir. Dəstəklənən məşğulluq "sosial model"ə uyğun, hüquqa əsaslanan məşğulluq üsuludur. "Dəstəklənən məşğulluq ən sadə formada, əlilliyi olan insanlara açıq əmək bazarında gəlir gətirən iş tapmaqda və həmin işdə qalmaqda dəstək verən üsul kimi müəyyən edilir. Burada əsas söz "dəstək"dir və bu dəstəklərə işdən əvvəl, iş zamanı və işdən sonra əlil fərdin dəstəklənməsi, həmçinin işəgötürənə dəstək daxildir. Bu dəstəyi çox vaxt iş üzrə məşğulluq mütəxəssisi və peşə məsləhətçisi təmin edir. Dəstəklənən məşğulluğun perspektivi fərdin edə bilməyəcəyinə deyil, nə edə biləcəyinə diqqət yetirməkdir" [7]. Respublikamızda əlillərin məşğulluğunun artırılmasında həyata keçirilən özünüməşğulluq proqramlarının əhəmiyyəti böyükdür. Mütəmadi olaraq proqramın əhatə dairəsi genişlənməkdədir. Özünməşğulluq proqramında əlillərə həssas sosial qrup olaraq üstünlük verilir. 2021-ci ildə 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 13,8 dəfə çoxdur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi və Dünya Bankı tərəfindən "Azərbaycanda məşğulluğa dəstək" layihəsi həyata keçirilir. Layihənin məqsədi özünüməşğulluq proqramının genişləndirilməsi və Dünya Bankının vəsaitləri hesabına işsiz kimi qeydiyyatda olan əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, məcburi köçkünlər, ünvanlı dövlət sosial yardımı alanlar, qadınlar, gənclər və həssas qruplardan olan digər şəxslərin özünüməşğulluq proqramına cəlb edilərək onların formal əmək bazarına və layiqli məşğulluğa çıxış imkanlarının yaradılmasıdır. Layihənin icrası 2020-2025-ci illəri əhatə edir. Eyni zamanda, BMT İnkişaf Proqramı ilə birgə icra olunan "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi, "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin olunması" layihəsi üzrə də əlilliyi olan şəxslərin məşğulluğuna dəstək verilir.

**Əlilliyi olan şəxslərin məşğulluğunun təhlili**

Qeyd etdiyimiz kimi, əlilliyi olan şəxslərin iqtisadi fəallığı digərləri ilə müqayisədə aşağıdır. Başqa sözlə əksəriyyət ölkələrdə işsizlik göstəriciləri əlilliyi olan şəxslər arasında, əlilliyi olmayanlara nisbətdə daha yüksəkdir. Bu vəziyyət dünyanın demək olarki bütün ölkələrində izlənilir. Əlillər digərləri ilə müqayisədə məşğulluqla daha aşağı təmin olunurlar. Əlilliyi olan şəxslərin məşğulluğunun aşağı olmasının bir sıra səbəbləri mövcuddur. Bu səbəblər müxtəlif ölkələr üzrə fərqlənir. Bəzi hallarda isə əlillər özləri əmək fəaliyyəti ilə məşğul olmaqdan çəkinirlər. Bu əlilliyi olan şəxsin işləyəcəyi halda pensiyanı və digər müavinətləri itirmək qorxusu ilə bağlıdır. Ən önəmli səbəblərdən biri təhsildir. "İbtidai və orta təhsildən tez-tez kənarda qaldıqları üçün çox az sayda əlilliyi olan şəxslər ali təhsilə

yiyələnir. Bundan başqa ümumi texniki və peşə təhsili və təlimi sistemlərinin əksər hallarda əlilliyi olan şəxslər üçün əlçatan olmaması, o cümlədən müəllim heyəti arasında əlillik barədə məlumatlılığın olmaması, təlim metodları və vasitələrinin qıtlığıdı . Bir çox ölkələrdə hələ də əlilliyi olan insanlar üçün ictimai iaşə sahəsində ixtisaslaşmış peşə reabilitasiyası və təlim mərkəzlərinə rast gəlinmir. Bu mərkəzlərdə isə adətən məhdud bacarıqların inkişafı proqramları dəsti təqdim edilir ki, bu da çox vaxt əmək bazarının tələblərinə uyğun gəlmir" [9]. Beynəlxalq Əmək Təşkilatının təhlillərinə görə əlilliyi olan şəxslər arasında iqtisadi fəallığın aşağı olmasının çox sayda səbəbləri mövcuddur: "təhsili və peşə hazırlığının aşağı olması; ixtisassız işlərə tələbin aşağı olması; iri müəssisələrdə və xidmət sferasında işçilərin sayının azalması; mümkün bədbəxt hadisələrə və sığorta xərclərinə görə narahatlıq; insanların əlilliyi olan şəxs kimi qeydiyyatdan keçmək istəməməyi; işə düzəlmə və iş yerlərinə dair məlumatsızlıq, işəgötürənlərin əlilliyi olan şəxslərin tələbləri və qabiliyyətləri barədə məlumatsız olmaları; texniki və fərdi dəstəyin kifayət səviyyədə olmamağıdır" [2]. Digər amillərdən biri isə iş yerinin əlilliyi olan şəxslərə görə uyğunlaşdırılmasına çəkiləcək arzuolumaz xərclərlə bağlıdır. Respublikamızda da əlilliyi olan şəxslər arasında məğulluq göstəriciləri aşağıdır. Əlillər digərləri ilə müqayisədə məşğulluqla daha aşağı təmin olunurlar. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əlilliyi olan şəxslərin əmək bazarına çıxışını əngəlləyən problemlər kimi göstərilir ki, "iş yerlərində bu kateqoriya insanlar üçün zəruri infrastruktur yox dərəcəsindədir. Əlilliyi olan insanların əmək bazarına çıxışı üçün onların peşələrə yiyələnməsi və peşəyönümünü dəyişmələri üçün ciddi və əhatəli təhsil sistemi mövcud deyil. Bu insanlar iş yerlərinə dair məlumatları əldə edə bilmir, iş yerləri məhduddur, həmçinin bu şəxslər üçün açıq (rəqabətli) əmək bazarına çıxışla bağlı problemlər mövcuddur" [5]. Dünya Əlillik Hesabatında da qeyd edildiyi kimi bir çox ölkələrdə əlilliyi olan insanların məşğulluğu haqqında sistemli məlumat yoxdur. Baxmayaraq ki, aşağı və orta gəlirli ölkələrdə, son illərdə yaxşılaşmalar baş vermişdir bununla belə bu mövzuda məlumatlar hələ də məhduddur. Bəzi ölkələrdə əlillərin bir qisminin qeyri-formal iqtisadiyyatda işlədiyindən heç bir əmək bazarı statistikası mövcud deyil. Əlilliyi olan insanların məşğulluğu ilə bağlı davamlı məlumat olmadığından müxtəlif illərdə dərc olunan məlumatlarından istifadə olunmuşdur. 1 saylı diaqram məlumatlarının təhlilinə əsasən əksər ölkələrdə əlillərin məşğulluq səviyyəsinin ümumi əhali ilə müqayisədə aşağıdır. İnkişaf etməkdə olan ölkələrdə əmək qabiliyyətli yaşda olan əlillər arasında işsizlik səviyyəsi daha yüksəkdir. Asiya ölkələrində əmək qabiliyyətli yaşda olan əlillər arasında işsizlik səviyyəsi təxminən 80%, sənayeləşmiş ölkələrdə 50-70%, Avropa ölkələrində isə 43-54% təşkil edir.

**Diaqram 1.**

**Bəzi ölkələrdə əlilliyi olan şəxslərin məşğulluq səviyyələri**




Mənbə: [12].

Diaqramdan göründüyü kimi Cənubi Afrikada ümumi məşğulluğun əlilliyə nisbəti digər ölkələrlə müqayisədə daha aşağıdır. Əlillərin ümumi məşğulluğa nisbətinin ən yüksək olduğu ölkə isə İsveçrədir.

**Azərbaycanda əlillərin məşğulluğunun mövcud vəziyyəti**

Respublikamızda da əlillərin məşğulluğu ilə bağlı statistik məlumatlar yox dərəcəsindədir. Əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyası vəziyyətinin statistik öyrənilməsi məqsədilə ilk dəfə 2021-ci ildə əlilliyi olan şəxslərin məşğulluğuna dair seçmə statistik müayinə keçirilmişdir. Mövcud vəziyyətin qiymətləndirilməsində sözü gedən seçmə statistik müayinənin nəticələrindən istifadə olunmuşdur. Müayinəyə 20894 nəfərdən cəlb olunmuşdur ki, bunlardan 12571 nəfəri kişi, 8323 nəfəri qadın olmuşdur. 2021-ci ildə Azərbaycanda əmək pensiyası alan əlilliyi olan şəxslərdən işləyənlərin sayı 46324 nəfər olmuşdur ki, buda 2020-ci illə müqayisədə 3116 nəfər çoxdur (diaqram 2). Müqayisə edilən 2010-2021-ci illər ərzində isə bu göstərici üzrə 2,2 dəfə artım baş vermişdir.

**Diaqram 2.**

**Azərbaycanda Əmək pensiyası alan əlilliyi olan şəxslərdən işləyənlərin sayı (nəfər)**




Mənbə: [4].

Əlilliyi olan şəxslərin təhsili və əmək fəaliyyəti ilə məşğul olması onların cəmiyyətdə sosial-iqtisadi münasibətlərə inteqrasiyasının əsas vasitələrindəndir. Statistik məlumatların təhlilinə əsasən əlilliyi olan məşğul şəxslərin 55,8%-ni ümumi təhsili olanlar, 16%-ni orta ixtisas, 15,9 %-ni ali, 11,7 %-ni isə peşə təhsili olanlar təşkil etmişdir. Təhsili olmayan və yalnız məktəbəqədər təhsili olanlar payı isə 0,6 % təşkil etmişdir. Şəhər yerləri ilə müqayisədə kənd yerlərində təhsili olmayanların sayı daha çoxdur. Belə ki, təhsili olmayan 37 nəfər əlilliyi olan məşğul şəxsin 27 nəfəri kənd sakinidir. Təhsil səviyyəsi üzrə ümumi təhsili olanlar kənd yerlərində üstünlük təşkil etsə də (2466 nəfər və ya 63%), orta ixtisas və ali təhsili olanların sayı nəzərə çarpacaq dərəcədə azdır. Müvafiq olaraq, 23% və 16,7% təşkil edir. Müayinəyə cəlb olunan və əmək fəaliyyəti ilə məşğul olmayanların 63,2%-ni ümumi orta təhsili olanlar, 12%-ni orta ixtisas, 9%-ni ali, 9,2%-ni isə peşə təhsili olanlar təşkil etmişdir. Təhsili olmayan və yalnız məktəbəqədər təhsili olanlar isə 6,4% təşkil etmişdir. Bu göstərici üzrə də təhsili olmayanlar və ümumi təhsili olanların sayı kənd yerlərində üstünlük təşkil edir. Peşə təhsili, orta ixtisas təhsili və ali təhsili olanların sayı isə şəhər yerləri ilə müqayisədə aşağıdır. Əlilliyi olan məşğul şəxslərin yaş qrupları üzrə bölgüsünün təhlilinə əsasən, ən çox məşğul olanlar (16%) 45-49 yaşda olanlardır. 50-54 və 55-59 yaş qrupunda olanların da sayı çoxdur. Ən az məşğul olanlar isə (3,5%) 18-24 yaşda olanlardır.

**Cədvəl 2.**

**Azərbaycanda əlilliyi olan şəxslərin məşğulluq səviyyəsi**

| | Əlilliyi olan şəxslərin təhsil səviyyəsi | | Əlilliyi olan məşğul şəxslərin təhsil səviyyəsi | |
|---|---|---|---|---|
| | cəmi | kənd | cəmi | kənd |
| Cəmi | 20894 | 9521 | 7015 | 3080 |
| Təhsili yoxdur | 1152 | 789 | 37 | 27 |
| Məktəbəqədər təhsil | 191 | 46 | 7 | 1 |
| Ümumi təhsil | 13219 | 7486 | 3911 | 2466 |
| o cümlədən: | | | | |
| ibtidai təhsil | 700 | 412 | 69 | 49 |
| ümumi orta təhsil | 3302 | 2093 | 830 | 587 |
| tam orta təhsil | 9217 | 4981 | 3012 | 1830 |
| Peşə təhsili | 1928 | 304 | 821 | 137 |
| o cümlədən: | | | | |
| ilk peşə təhsili | 1317 | 220 | 552 | 94 |
| texniki peşə təhsili | 611 | 84 | 269 | 43 |
| Orta ixtisas təhsili | 2515 | 535 | 1124 | 262 |
| Ali təhsil | 1889 | 361 | 1115 | 187 |

Mənbə: [4].

İqtisadi fəaliyyət növləri üzrə təhlilə əsasən əlilliyi olan məşğul şəxslərin payı kənd təsərrüfatında üstünlük (38%) təşkil edir (cədvəl 3). Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, su təchizatı, tullantıların təmizlənməsi və emalı və mədənçıxarma sənayesi sahəsində isə məşğul olanların sayı azdır. Kənd yerlərində əlilliyi olan şəxslərin 81%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində çalışır. Maliyyə və sığorta fəaliyyəti, daşınmaz əmlakla əlaqədar əməliyyatlar və turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində məşğul olanların sayı azdır.

**Cədvəl 3.**

**Əlilliyi olan məşğul şəxslərin iqtisadi fəaliyyət novləri üzrə bölgüsü**

| İqtisadi fəaliyyət növlər | Cəmi | Kənd yerləri üzrə | |
|---|---|---|---|
| | | nəfər | %-lə |
| Cəmi | 7015 | 3080 | 44% |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2659 | 2155 | 81% |
| Mədənçıxarma sənayesi | 64 | 9 | 14% |
| Emal sənayesi | 269 | 26 | 10% |
| Elektrik enerji, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 161 | 37 | 23% |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 85 | 32 | 38% |
| Tikinti | 409 | 149 | 36% |
| Ticarət, nəqliyyat vasitələrin təmiri | 604 | 160 | 27% |
| Nəqliyyat və anbar təsərrüfatı | 335 | 96 | 29% |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 124 | 10 | 8% |
| İnformasiya və rabitə | 219 | 19 | 9% |
| Maliyyə və sığorta fəaliyyəti | 214 | 5 | 2% |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 53 | 2 | 4% |
| Peşə, elmi və texniki fəaliyyət | 119 | 13 | 11% |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 146 | 25 | 17% |
| Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat | 148 | 42 | 28% |
| Təhsil | 398 | 122 | 31% |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 230 | 37 | 16% |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 175 | 30 | 17% |
| Digər sahələrdə xidmətlərin gəstərilməsi | 603 | 111 | 18% |

Mənbə: [4].

Əlilliyi olan məşğul şəxslərin məşğulluq statusu üzrə bölgüsünün təhlilinə əsasən 35,5% əlilliyi olan şəxs dövlət müəssisəsində, 24,3% isə qeyri-dövlət müəssisələrində muzdla işləyir (cədvəl 4). Özəl sektorun əlillərin işlə təminatında iştirakçılıq səviyyəsi aşağıdır.

Qanunvericiliyin tələbinə görə isə hər bir müəssisə əmək qüvvəsinin 5 faizə qədərini əlilliyi olan şəxsərdən formalaşdırmalıdır. Ailə kəndli təsərrüfatında və ya ailə müəssisəsində haqqı ödənilmədən çalışan ailə üzvünün payı isə 23,2%-dir. Kənd yerlərində isə qeyri-dövlət müəssisələrində çalışanların payı daha çoxdur. Ən yüksək paya isə ailə kəndli təsərrüfatında və ya ailə müəssisəsində haqqı ödənilmədən çalışanlar aiddir.

**Cədvəl 4.**

**Əlilliyi olan məşğul şəxslərin məşğulluq statusu üzrə bölgüsü**

| Məşğulluq statusu | Cəmi | Kənd | |
|---|---|---|---|
| | | nəfər | %-lə |
| Cəmi | 7015 | 3080 | 44% |
| Dövlət müəssisəsində muzdla işləyən | 2490 | 774 | 31% |
| Qeyri-dövlət müəssisəsində və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs yanında muzdla işləyən | 1708 | 595 | 35% |
| Sahibkar (işəgötürən) | 311 | 128 | 41% |
| Fərdi qaydada sahibkarlıqla məşğul olan fiziki şəxs | 877 | 456 | 52% |
| Ailə kəndli təsərrüfatında və ya ailə müəssisəsində haqqı ödənilmədən çalışan ailə üzvü | 1629 | 1127 | 69% |

Mənbə: [4].

Əlilliyi olan şəxslərin məşğulluğuna dair seçmə statistik müayinə materiallarının təhlili əlilliyi olan məşğul şəxslərin 24,2%-nin (kənd yerlərində isə 24,2%) iş yerini dəyişmək istəyində olduğunu göstərir. İş yerini dəyişmək istəyinin əsas səbəbləri arasında əmək haqqının aşağı olması (52,4%, kənd yerlərində 53,9%), üstünlük təşkil edir. (sxem 1).

**Sxem1.**

**Azərbaycanda əlilliyi olan şəxslərin iş yerini dəyişmək istəyinin əsas səbəbləri**




Mənbə: [4].

Digər səbəblər kimi iş yerinə çətinliklə gedib-gəlməsi, yəni yol-nəqliyyat infrastrukturunun əlilliyi olan şəxslər üçün uyğunlaşdırılmaması (20,2%, kənd yerlərində 23%), iş yerində əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin olunmaması (13,9 %, kənd yerlərində 14,4%) və iş yerinin əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılmaması (8,1%, kənd yerlərində 6,8%) olmuşdur. Əksər müəssisələrdə mövcud infrastruktur olmaması əlillərin əmək fəaliyyəti ilə məğul olmasınna mane yaradır. Bənzər mənzərəni dövlət müəssisələrində də müşahidə etmək mümkündür. Əlillərin işlə təminatında öz həllini tapmalı olan məsələlərdən biri də infrastrukturdur. Əlilliyi olan şəxslərin işə düzəlməsində onlara mane olan amillər sırasında əsas yer onların əlilliklərinin olmasıdır. Münasib işin olmaması, hər hansı peşəyə (ixtisasa) sahib olmamaları da əlillərin əmək fəaliyyətinə başlamalarına mane olan faktorlardandır.

**Nəticə**

Həm dünyada, həm də respublikamızda əlilliyi olan şəxslər digərləri ilə müqayisədə daha ciddi məşğulluq problemi yaşayır. Əlilliyi olan şəxslər əmək bazarına daxil olmada fiziki və sosial çətinliklərlə üzləşirlər. Ölkəmizdə 600 mindən çox əlilliyi olan şəxs var. Onların iqtisadiyyatdan kənar qalması, bu sahədə iştirak etməməsi, potensiallarını ortaya qoymamaları ölkəmizin ümumi inkişafını geriyə salan məqamlardandır. Əilliyi olan şəxslərin işləməsinin qarşısını alan bir çox maneələr var. Maneələr arasında əliliyi olan şəxslərin təhsil səviyyəsinin və ixtisasının aşağı olması, işəgötürənlərin əlilliyi olan insanları işə götürməkdə maraqlı olmaması, iş yerlərinin əlilliyi olan şəxslər üçün uyğunlaşdırılmaması, möcud infrastrukturun uyğun olmaması yer almaqdadır. Əlilliyi olan şəxslərin məşğulluğunun tənzimlənməsində ölkələr müxtəlif metodlardan istifadə edirlər. Əlilliyi olan şəxlərin məşğulluğunun artırılmasına istiqamətlənmiş proqram və tədbirlər tətbiq olunan ölkənin sosial və iqtisadi vəziyyətinə görə fərqlənir. Respublikamızda əlillərin məşğulluğunun təmini ilə bağlı qanunvericilik təminatı var. Əlillərin məşğulluğunun təmini ilə bağlı aparılan islahatların davam etdirilməsindən ötrü qanunvericilikdəki boşluqların aradan qaldırılması da məqsədə uyğundur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995. https://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası. Əlilliyi olan şəxslərin əmək bazarına çıxışının asanlaşdırılması sahəsində siyasət. Bakı, 2012.
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. https://www.e-qanun.az/framework/46943
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/
5. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası prezidentinin fərmanı. Bakı, 2012. http://www.president.az/files/future_az.pdf
6. Əlilliyi olan şəxslərin hüquqları haqqında qanun. Bakı, 2018. https://e-qanun.az/framework/39591)
7. Lütfiye Karaaslan. Çalışma İlişkileri Dergisi. Ocak 2020, Cilt 1, Özel Sayı, Sayfa: 46-58.
Geçmişten Günümüze Engelli İstihdamı: Engelliler için Nitelikli İstihdamda Yeni Yaklaşımlar. https://dergipark.org.tr/en/pub/cider/issue/56709/664196)
8. İLO, OECD. Labour market inclusion of people with disabilities. Buenos Aires, Argentina, 2018. 20 page. https://www.ilo.org/wcmsp5/groups/public/dgreports/inst/documents/publication/wcms_646041.pdf
9. İLO. Disability and work. Increasing employability of persons with disabilities. https://www.ilo.org/global/topics/disability-and-work/wage-employment/WCMS_574886/lang--en/index.htm
10. Promoting Employment Opportunities for People with Disabilities Quota Schemes Volume 1. Gender, Equality and Diversity & ILOAIDS Branch. International Labour Organization 2019 file:///C:/Users/User/Downloads/Documents/wcms_735531.pdf
11. Sophie Mıtra, Jaclyn Yap. The dısability data report 2021. Fordham Research Consortium on Disability. https://disabilitydata.ace.fordham.edu/wp-content/uploads/2021/05/The-Disability-Data-Report-2021.pdf
12. World Health Organization. The World Bank. World Report on Disability. file:///C:/Users/User/Downloads/9789240685215_eng%20(2).pdf

***Жала Рахман кызы Алиева***
***кандидат экономических наук***
***Институт Экономики при Министерстве Науки и Образования***
***отдел "Инклюзивное социальное развитие", в.н.с.***

***Оценка текущего состояния занятости инвалидов***

***Резюме***

*Цель исследования - оценить современное состояние и выявить проблемы трудоустройства лиц с инвалидностью в мире и в Азербайджане. Методология исследования - в исследовании использовались стратегические и нормативно-правовые документы, отчеты международных организаций в данной области. Также использовались сравнительный экономико-статистический анализ, обобщение, систематический анализ, методы личного наблюдения и суждения. Прикладная значимость исследования - оно может быть полезным в сфере социально-экономической политики, проводимой с целью увеличения занятости и улучшения благосостояния лиц с ограниченными возможностями в Азербайджане. Результаты исследования - экономическая активность лиц с инвалидностью ниже по сравнению с другими. В большинстве стран уровень безработицы среди людей с инвалидностью выше, чем среди людей без инвалидности. В связи с этим исследуются причины низкой экономической активности инвалидов. Оригинальность и научная новизна исследования - в сравнительном порядке анализируется современное положение занятости лиц с ограниченными возможностями в Азербайджане и мире, причины их низкой экономической активности.*

***Ключевые слова:*** *инвалиды, занятость и безработица, трудовые квоты, трудовая пенсия, права инвалидов*

***Zhala Rahman Aliyeva***
***PhD***
***Institute of Economics under the Ministry of Science and Education***
***"Inclusive social development" department, s.r.***

***Assessment of the current state of employment of persons with disabilities***

***Summary***

*The purpose of the study is to assess the current state and to reveal the problems of employment of persons with disabilities in the world and in Azerbaijan. Methodology of the research - in the research were used strategic and legal-normative documents, reports of international organizations in this field. Also were used comparative economic-statistical analysis, generalization, systematic analysis, personal observation and judgment methods. Application significance of the research - it can be useful in the field of socio-economic policy conducted in order to increase employment and improve the well-being of persons with disabilities in Azerbaijan. The results of the study - the economic activity of persons with disabilities is lower compared to others. In most countries, the unemployment rate among people with disabilities is higher than among people without disabilities. In this regard, the reasons for the low economic activity of disabled people are being investigated. The originality and scientific novelty of the study - the current situation of employment of persons with disabilities in Azerbaijan and the world is analyzed in a comparative manner, the reasons for their low economic activity.*

***Keywords:*** *persons with disabilities, employment and unemployment, employment quotas, labor pension, rights of the disabledstigated.*

***Elmi redaktor: i.e.d. dos. Y.Məmmədov***
***Daxil olub: 13.12.2022.***
***Çapa qəbul olunub: 19.12.2022.***